**COVID – 19-un millətindən, dinindən, yaşadığı ərazidən asılı olmayaraq, insanları təhdid etməsindən bir il keçir. Ümumdünya Səhiyyə Təşkilatının bildirdiyinə görə, dünyada son bir gündə koronavirusa yoluxma ilə bağlı 501min 930 hal qeydə alınıb, COVID – 19-dan 11 986 pasiyent ölüb. Beləliklə, dünyada COVID – 19-a yoluxma hallarının ümumi sayı 10 milyondan, ölüm hallarının sayı 3 milyondan çoxdur.**

# Koronavirus yayılmadığı ölkələrə də iqtisadiyyatı zəiflətməklə zərər vurur



Böyük Birtaniyanın “The Guardian” qəzetində koronavirus infeksiyasının indiyədək yol tapmadığı məkanlar, ölkələr haqda yazı dərc olunub. Göstərilir ki, dünyada koronavirus pandemiyasının hələ də yan keçdiyi və bəlkə də heç vaxt çata bilməyəcəyi yerlər var. Bu yerlərdə maskasız, məsafəsiz, daxili karantin rejimləri, qapanmalar, təcridlər olmadan həyat davam edir. Belə ölkələrin əksəriyyəti adalarda və ucqar ərazilərdə yerləşir. Həmin ərazilərdə yaşayanlar indiyədək koronavirusa yaxalanmasalar da, virusun, pandemiyanın yaratdığı qlobal problemlər bu ölkələrdən də yan keçməyib.

Okeaniya – Sakit okeanın mərkəzi və qərb hissəsində yerləşən adalar qrupuna verilmiş addır. Bu adaların 15-i Kuk adaları dövlətindən ibarətdir.

Koronavirus Kuk adalarında sadəcə haqqında söz - söhbət gəzən kabusdan savayı bir şey deyil. Adaların paytaxtı Rarotonqa adasında yerləşir. Pandemiyanın baş qaldırdığı ilk aylarda əhalinin daha sıx məskunlaşdığı, ölkənin ən böyük adası olan Rarotonqada məktəblər bağlandı və ictimai yerlərdə sosial məsafənin gözlənməsi təbliğ edilməyə başlandı. Adada görülən tədbirlər faktiki olaraq Kuk sakinlərinin virusa yoluxacağı təqdirdə görülməli olan tədbirlərə bərabər idi. Kuk adaları dövlətinin əhalisi 17 min 500 nəfərdir. Bu ölkədə cəmi 22 həkim və iki süni nəfəs aparatı var. Pandemiyanın ilk dövrlərində ölkədə çoxları virus qorxusu ilə yaşayırmış. Rarotonqa adasının sakini Qlenda Tuayn deyib ki, indi özümüzü virusa hazırlıqlı hiss edirik. Amma hazırlıqlı olduq, ya olmadıq, biz COVID – 19-un cəmiyyətdə yaratdığı real problemlərdən uzaq, təhlükəsiz bir guşədəyik.

Kuk adalarında ümumi daxili məhsulun üçdə iki hissəsindən çoxu turizmin payına düşür. 2020-ci ilin mart ayının ortalarından hökumət sərhədləri əcnəbi turistlərin üzünə bağlayıb. Virusdan nə qədər uzaq olmasına baxmayaraq, pandemiyanın təsiri bu ölkədə açıq duyulur. Sərhədlərin bağlanmasının əhalinin maddi vəziyyətinə mənfi təsir göstərdiyini Kuk adalarının baş naziri Mark Braun da bir çıxışında vurğulayıb. Sərhədlər bağlanandan ölkə iqtisadiyyatı hökumətin ayırdığı yardımlar hesabına duruş gətirir. Yardımlar turizmdən gəliri olmamasına baxmayaraq, fəaliyyətini davam etdirən kommersiya sektorunun qorunmasına, iş yerlərinin saxlanmasına yönəldilir.

Baş nazir Mark Braun iddia edib ki, çətinliklərə baxmayaraq, yaxud, bəlkə də elə bu çətinliklərə görə əhalinin mübarizə ruhu daha da güclənib: “İnsanlar bir-birinin qayğısına qalır, hər kəs qonşularının, qohumlarının vəziyyətini düşünür, çörəyini başqaları ilə bölüşür. Əhalimizin quruculuq eşqi, yaradıcı imkanları ikiqat artıb”. Kuk adalarında biznes sektoru öz işinə ara verməmək üçün Yeni Zelandiya ilə mövcud turizm dəhlizindən də yararlanır (bu dəhlizdə yumşaq karantin rejimi tətbiq olunub). Bu adaların sakinləri heç bir tibbi maskadan istifadə etmədən, virusa görə başqa ölkələrin daxildə tətbiq etdiyi hər hansı məhdudiyyətə bənzər bir məhdidiyyətlə qarşılaşmadan öz həyatlarını yaşamağa davam edirlər. Sakit okean hövzəsində virusun qarşısını almaq üçün, əslində, sərhədləri qətiyyətlə bağlamaq lazımdır.

Tonqa Krallığı belə də edib: öz ərazisini kənardan demək olar tam təcrid edib. Giriş-çıxışı tamamilə dayandırıb və ada dövlətləri olan Kiribati, Tuvalu, Nauru, Niue kimi, o da virusdan yan ötməyi bacarıb. Tonqa və Kiribatinin hər birində 100 mindən, Tuvaluda 11 mindən, Nauruda 10 mindən, Niuedə 1600-dən çox adam yaşayır. Aviasiya ilə gediş-gəlişin, daha dəqiqi, uçuş zolaqlarının olmadığı Tokelau və Pitkern adaları da COVID – 19 infeksiyasından yan ötə bilib. Bu, bir daha onu göstərir ki, izolyasiya işə yarayır. Tokelau – Yeni Zelandiyanın tabeliyində 3 adadır. 5 il qabaqkı hesablamaya görə, 1500 nəfər əhalisi var. Pitkern – Böyük Britaniyanın tabeliyində 5 adadır. Birində yaşayış var. 7 il qabaqkı hesablamaya görə, burada 49 nəfər yaşayır.

Lakin izolyasiya tədbirlərini bir kənara qoyaraq, tam əks addımlar atan ərazilər də var. Sakit okeanın cənubunda yerləşən, Fransanın tabeliyində olan Fransız Polineziyası (dənizkənarı ərazi, 300 minə yaxın əhalisi var) turizmdən asılı olan durğun iqtisadiyyatı canlandırmaq üçün öz sərhədlərini yenidən açıb və iyul ayında karantindən imtina edib. Həmin vaxt bu ərazidə yalnız 62 yoluxma qeydə alınmışdı. İndi yoluxanların sayı 15 min nəfərdən çox, bu xəstəlikdən ölənlərin sayı isə 100 nəfərə yaxındır.

Sərhədləri bağlı saxlamağın da mənfi nəticələri var. COVD – 19 pandemiyası səbəbindən sərhədlərin bağlanması Sakit okean hövzəsində onsuz da kövrək olan iqtisadiyyatı (ona görə kövrək ki, turizmdən asılıdır) diz çökdürüb.

2020-ci ildə Fici (yüzlərlə adadan ibarət dövlət – 900 min nəfərə yaxın əhalisi var) iqtisadiyyatı 20 faizdən çox azalıb. Burada minlərlə insan turizm sektorundakı işindən ayrılıb, öz torpaqlarında kənd təsərrüfatı fəaliyyətinə qayıdıb.

İqtisadiyyatın inkişafı qəfil dayandığına görə Papua – Yeni Qvineyanın bəzi yerlərində insanlar balıqqulağından hazırlanmış pullardan istifadəyə, belə pullarla mübadilə üsuluna qayıdıblar. Yeni Qvineya adasının şərq hissəsini, Bismark arxipelaqını, Solomon adalarının şimal hissəsini və çoxlu başqa adanı əhatə edən Papua – Yeni Qvineyanın 7 milyon nəfərdən çox əhalisi var.

Dünya Bankının pandemiya dövründə apardığı sorğuya görə, Papua – Yeni Qvineyada yaşayan ailələrin yarıdan çoxu (52 faizi) uşaqlarının təhsil haqqını ödəyə bilmədiyinə görə onları məktəbdən çıxarıb. Adanın şərqində yerləşən Solomon adalarında (yaxud Süleyman adaları minə yaxın adadan ibarət dövlətdir) yarım milyondan çox adam yaşayır. İndiyədək Solomon adalarında cəmi 17 nəfər koronavirusa yoluxub. Amma Dünya Bankının bu ölkədə keçirdiyi sorğuda iştirak edən ailələrin 57 faizi deyib ki, gəlirləri azaldığına görə istifadə etdikləri ərzaqları azaldıblar.

Sakit okean arxipelaqının qərbindəki Palaunun ən böyük şəhəri olan Korordа indiyədək koronavirusa yoluxma faktı qeydə alınmayıb. Palau 328 adadan ibarət dövlətdir. 21 min nəfərə yaxın əhalisi var. Ölkə əhalisinin yarıdan çoxu Koror şəhərində yaşayır. Kororda koronavirusun olmaması giriş-çıxışın vaxtında bağlanmasının nəticəsi kimi qiymətləndirilir.

Palau dövləti hətta ABŞ-ın köməyilə koronavirus əleyhinə 2800 dozalıq “Moderna” peyvəndi əldə edib (Palau ABŞ-la sərbəst assosiasiyada olan dövlətdir). Palauda bu ilin ortasına qədər əlavə dozalar da almaq və bütün əhalini peyvənd etdirmək planlaşdırılır.

Palau hökumətinin təmsilçisi Semdiu Deçeronq “Guardian”a müsahibəsində deyib: “Pandemiyanın yaratdığı vəziyyət zahirən bizə adi görünən ailə yığıncaqları kimi toplantıların, yaxud məzuniyyət gecələri kimi sosial tədbirlərin qədrini bilməyimə səbəb oldu. Hətta gündəlik həyatımızın bir hissəsi olan nəqliyyatın da qədrini bilməyə başlamışam”.

Semdiu Deçeronqun ABŞ – da yaxın qohumları yaşayır. Onların bəzisi təcili tibbi yardım xidmətində işləyir: “Mən onların pandemiya dövründə üzləşdiyi vəziyyəti yaxşı təsəvvür edirəm. Çünki biz özümüz də hər zaman qorxu içərisində yaşayırıq ki, birdən kimsə virusa yoluxar və hər yeri bağlamaq məcburiyyətində qalarıq”. S.Deçeronq pandemiyaya görə adadan çıxa bilməməsindən də narahatdır: “Gözəl bir adada yaşamağın üstünlükləri çoxdur. Amma adam bəzən bir müddətə buradan uzaqlaşmağa da ehtiyac duyur”. Deyir ki, adadan çıxa bilməməsinin əlavə faydası da olub. O, çoxdandır getmədiyi, ya da vaxt tapıb görə bilmədiyi yerləri yenidən kəşf edib. Müsbət əhval-ruhiyyənin izolyasiya dövründə ona kömək etdiyini bildirən Semdiu Deçeronq inanır ki, evinə qayıtmaq istəyən ailələrə o günü görmək tezliklə qismət olacaq.

Koronavirusun yan keçdiyi ölkələrdən danışarkən, onun daha çox yayıldığı ölkələri xatırlayaraq onu da qeyd etməliyik ki, təhlükəli virusa ən çox yoluxma ABŞ-da qeydə alınıb. Bu ölkədə 25 676 612 nəfər virusa yoluxub. Daha sonra Hindistan (10 746 183), Braziliya (9 118 513), Rusiya (3 850 439), Böyük Britaniya (3 743 738), Fransa (3 125 351), İspaniya (2 705 001), İtaliya (2 541 783), Türkiyə (2 470 901), Almaniya (2 216 363), Kolumbiya (2 077 633) və Argentina (1 915 362) gəlir.

*Hazırladı:*
*Zərifə BƏŞİRQIZI,*
*“Xalq qəzeti”*

Xalq qəzeti 2021.- 3 fevral.- S.10.